**Aslan Quliyev**

# MASMAVİ SƏMA VƏ AĞAPPAQ BULUDLAR

QANUN NƏŞRİYYATI

Bir yazıçının düşüncələri, dostlar, qonşular, çaqqallar, gürzələr, dovşanlar, namərd qız, mavigözlü qız, yarası qan verə-verə sevgilisini gözləyən şair.

Bu romanda günəşi, ayı oğurlamaq mümkündür. Amma bütün bu absurd hadisələrin altında çox real bir ağırlıq var: itkinin, tənhalığın, sevginin və zamanın ağırlığı.

Bu roman  böyük sözlər işlətmədən böyük mətləblərdən bəhs edən romandır. Güldürür, kədərləndirir, amma oxucu nə vaxt ağlamalı, nə vaxt gülməli olduğunu bilmir, çünki roman bu sərhədi qəsdən silir.

Azərbaycan nəsrinin ən yaxşı ənənəsindən gələn, amma öz səsiylə danışan bir roman.

**Aslan Quliyev        Masmavi səma və ağappaq buludlar**

Janr: roman rekviyem
Ölçü: 130x200 mm
Cild: yumşaq
Səhifə sayı: 168

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Qapaq dizaynı: | Rövşən Abbas |
| Korrektor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-15-087-2

© Aslan Quliyev, 2026
© Qanun Nəşriyyatı, 2026

Bir yaz günü öləcəyəm. Gözlərimi qapamazsan, məni qucağına götürüb gedərsən üzü gündoğana. Birinci təpəni aşar, ikinci təpə-

ni aşar, üçüncüdə dayanıb qəbrimi qazarsan. Günəş doğanda, günəşin şüaları ilə birlikdə məni qəbrə qoyar,

gözlərimdə donmuş masmavi səmaya, mavi səmada ağır-ağır süzən ağappaq buludlara son dəfə baxıb, gözlərimi qapayar, üstümü torpaqlarsan. Qəbrimin üstünə quşlar üçün su qoymağı unutmazsan, qoy çöldən uçub gələn quşlar su içə bilsinlər.

***

Mavi səmada ağappaq buludlar süzür, buludlar aşağı enir, qəsəbənin qırmızı kirəmitli damlarına toxunurlar. Yeni yazdığım roman məni çox yorub, uzanıram pambıq tayası kimi yumşaq bu-

ludun üstünə, əllərimi başımın arxasında çarpazlayıb dincəlirəm.

İçmək istəyirəm. Dükançının mənə nisyə verilməsi qadağan edilmiş mallarının siyahısında ilk yerləri spirtli içkilər tutur. Guya mən israfçılığa yol verirəm, su əvəzinə araq, şərab içirəm, onun da dədəsinin şərab zavodu yoxdur, babası araq istehsal eləmir. Xaricdəki qohumlarından ona miras qalmayıb, qəfil ölüblər, vəsiyyət eləməyə macal tapmayıblar. Di gəl, mən də bunu müflisləşdirirəm, bir şüşə şərabı nisyə verən kimi elə müflisləşir, az qalır çarəsizlikdən əl açıb dilənsin, qarşısına çıxan ilk telefon dirəyindən özünü assın, ya da yuxu dərmanı içib ulu babalarının yanına yollansın, təki mənim xoşagəlməz – o bunu obrazlı deyir, ölmür bəyəm obrazlı danışmaq üçün – mordamı bir daha görməsin.

Dolabların çəkməcələrini axtarır, bir banka kofe tapıram. Banka açılmır, çətinliklə açıram, əlim yaralanır, üzüm cızılır, sonda məcbur qalıb lənət bankanı dəmir kəsən mişarla kəsirəm. Baxanda gözlərimə inanmıram, içində kofe əvəzinə qapqara  daş var. Dükançı, indi buna insan desəm, planetin beş milyardlıq əhalisini təhqir eləmiş olaram. Heyvan desəm, evimin yanındakı yamacda otlayan dovşanlar, pəncərəmə çırpılıb

məni yuxudan oyadan qaranquşlar, bağda cəhcəh vuran bülbüllər, arxda su içəndən sonra sürünüb biçənəyə gedən, orada öz qorxulu nəğmələrini oxuyan gürzələr inciyərlər.

Sadəcə olaraq Tip demək olar, belə də deyirəm. Sən nə cürətlə romanını tamamlamaq üzrə olan yazıçıya əsrin əvvəllərində ölkəyə gətirilmiş kofeni sırıyırsan? Tip mızıldayır, yazıçı və onun romanı haqda ədəbsiz sözlər deyir. Yaxasından yapışıram, son dərəcə mədəni şəkildə iki-üç dəfə çəkirəm, Tipin divara qarşı allergiyası var imiş, huşunu itirir. Üzünə soyuq su vururam, ağlı başına gələndən sonra yenidən eyni sualı verirəm. Tip nəticə çıxartmayıb, yazıya alınası mümkün olmayan ifadələr işlədir. Onu susdurmaq üçün daha ciddi tədbirlər görmək istəyirəm, amma macal tapmıram. Polis gəlir, işin nə yerdə olduğunu öyrənir, məlum işdir, batdım, roman yarımçıq qaldı, polis qardaşımızla rastlaşdımmı, üç-beş ay əlimə qələm götürə bilmirəm.

İnanılası deyil, vah bə, olurmu?! Polis qardaş, özcə qardaşımız, nə desə yaxşıdır? “Sənin vətəndaşa zay məhsul satmağa ixtiyarın yoxdur!” Vətəndaşa, yəni mənə! Bir vətəndaş olaraq Tipdən vurduğu zərərin əvəzini ödəməsini tələb eləyirəm.

Tip boynunu burur, dartınıb dimdik durur:

– Mən sənə zərər vurmuşam?

Təsdiqləyir, vurduğunu deyirəm.

– Nə zərəri?

Əllərimi göstərirəm, Tip də nəyə görəsə qaralır, sonra göyərməyə başlayır. Nəhayət, dillənir: "Nə olur yəni? Mən vətəndaşa zay məhsul satanda əli, üzü zədələnir? Cənab polis, – udqunur, amma tez də əlavə edir, – polis qardaşım, mənə qalsa vaxtı keçmiş məhsulun bunun zədə almasında heç bir rolu olmayıb.

Adam özü topaldır..."

Polis qardaşımız, özcə qardaşımız, məni heyrətləndirməkdə davam edir:

– Sənin vətəndaşı təhqir eləmək səlahiyyətin yoxdur!

Vətəndaşı, yəni məni!

Tip çarəsiz halda başqa bir kofe bankasını gətirir, razılaşmıram. O qiymətə bir şüşə şərab verməsini tələb eləyirəm, qıvrılır, burulur, amma şərabı verir. Qara çörək, pendir də istəyirəm. Çarəsiz verir, əyilib qulağıma pıçıldayır:

– Haçan?

– Sabah, – deyirəm.

– Sabahların sonu yoxdur axı!

Ona irad tuturam:

– Yanılırsan, insan ömrü əbədi deyil.

– Sabahlar isə əbədidir!

Onunla çənə döyməyi artıq hesab elədiyimdən, cavab vermədən aldıqlarımı götürüb çıxıram. Tip arxamca qaçır, polisin getdiyini görüb qışqırır, asıb kəsir, saçları dağılıb, dağınıq saçlarını külək oynadır, köynəyinin yaxası açılıb, tüklü sinəsi tərdən işıldayır.

Süfrə açıram, qara çörəyi, pendiri doğrayır, şərabı içirəm. Şüşə boşalandan sonra dükançının romanım haqda dedikləri yadıma düşür. Vah bə, olurmu?! Nə günlərə qaldıq?

Gedirəm dükana, Tipi başa salmağa cəhd eləyirəm, deyirəm, mən çiynimi Azərbaycan ədəbiyyatının ən ağır yükünün altına vermişəm, ədəbiyyatımızın irəliyə inkişafını təmin eləyirəm. Sən əbləhin ucbatından isə zaman-zaman axsayıram, nəticədə, ədəbiyyatımız da axsayır, yanpörtü yeriyir, irəli yox, arxaya gedir. Sən istərsənmi başqaları baxıb ədəbiyyatımızın soncuqlayaraq yeridiyini görsünlər? Başa sala bilmirəm, Azərbaycan ədəbiyyatı qabağa getsin, ya arxaya, Tip üçün fərqi yoxdur.

Yaxasından yapışıram, yüngülcə dartıram, məlum işdir, orada divar var. Divara qarşı allergiyası varmış, gec ayılır, yenə həmən ifadələri işlədir,

amma adamın cəzasını verə bilmirəm, haradansa iki-üç satıcı qız gəlir, fəhlələr də kömək eləyirlər, qollarımdan yapışıb bayıra atırlar. Konserv və turş şərab qoxuyan bu orduya məğlub oluram.

Evə gedirəm. Bu halımı belə də təsvir eləmək olar.

Məğlub əsgər evinə qayıdır.

Rəssam dostum gəlir, bir şüşə araq gətirib. Bostandan kartof çıxarır, göy soğan yığır, kartofu qaynadırıq, qara çörək üçün dükana rəssam gedir. Çörək alıb gəlir, deyir, dükançı romanın haqqında senzuradan kənar ifadələr işlədirdi, təkcə deməklə kifayətlənmir, rəssamdır, bol fantaziyası var, təsvir də eləyir. Sözləri mənə təsir eləmir, təsvirisə yandırır, cızdağımı çıxardır. Həm də təsvir əndazəsiz uzun olur.

Cökə ağacının kölgəsində oturub arağı içirik, rəssam keflənir, gözləri gülür. Bağda oxuyan bülbüllərdən xoşu gəlib, almaq istəyir, kimin olduqlarını soruşur. Mənim olduqlarını deyir və könülsüz halda bülbülləri satmağa razılıq verirəm, deyirəm, birini əlli manatdan aşağı satmaram, indi heç bu qiymətə ala cəhrə də ala bilməzsən. Bu isə on manat təklif eləyir, sonda birini iyirmi manatdan razılaşırıq, qırx manat verir, hələlik iki